# "Azərbaycan sənayesi yeni inkişaf mərhələsində" yaradıcılıq müsabiqəsinin yekunlarına dair tədbir keçirilmişdir

**Dekabrın 26-da Bakı Biznes Mərkəzində İqtisadiyyat və Sənaye Nazirliyinin Azərbaycan Mətbuat Şurası ilə birgə KİV nümayəndələri arasında təşkil etdiyi "Sənaye ili"nə həsr olunmuş "Azərbaycan sənayesi yeni inkişaf mərhələsində" mövzusunda yaradıcılıq müsabiqəsinin yekunlarına dair tədbir keçirilmişdir.**

"Azərbaycan İnvestisiya Şirkəti" ASC-nin və Bakı Biznes Mərkəzinin də dəstək göstərdiyi tədbirdə İqtisadiyyat və Sənaye Nazirliyinin, Azərbaycan Mətbuat Şurasının əməkdaşları və KİV nümayəndələri iştirak etmişlər.



Əvvəlcə "Azərbaycanda sənayeləşmə: ənənə və gələcək" filmi nümayiş etdirilmişdir.

Sonra öz işinə başlayan tədbiri giriş sözü ilə açan iqtisadiyyat və sənaye nazirinin müavini Niyazi Səfərov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 2014-cü ilin "Sənaye ili" elan edildiyini və ölkə sənayesinin inkişafı istiqamətində il ərzində bir çox tədbirlərin həyata keçirildiyini vurğulamışdır. Qeyd edilmişdir ki, "Sənaye ili" çərçivəsində KİV nümayəndələrinin iştirakı ilə bir sıra tədbirlər, o cümlədən 3 məlumat turu, Beynəlxalq Sənaye Konfransı və yaradıcılıq müsabiqəsi təşkil edilmişdir. Bu gün yekun vurulan yaradıcılıq müsabiqəsinə müxtəlif qəzet, sayt, agentlik və telekanallardan ümumilikdə 50 iş təqdim olunmuşdur. Bu işlərin hamısı Müsabiqə Komissiyasının üzvləri tərəfindən qiymətləndirilmiş və qaliblər müəyyənləşdirilmişdir.

Tədbirdə çıxış edən Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov və şuranın sədr müavini Umud Rəhimoğlu AMŞ-nin İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən təşkil edilən müsabiqələrdə, eləcə də "Sənaye ili" çərçivəsində keçirilən müsabiqədə nazirliklə fəal əməkdaşlıq etdiyini bildirmiş, iştirakçıları təbrik edərək, müsabiqənin təşkilinə görə İqtisadiyyat və Sənaye Nazirliyinə təşəkkür etmişlər.

Azərbaycan Mətbuat Şurasının İdarə Heyətinin üzvü Vüqar Rəhimzadə müsabiqəyə çoxlu sayda yazının və televiziya süjetinin təqdim olunmasının Azərbaycanın iqtisadi inkişafına və "Sənaye ili" çərçivəsində görülən işlərə ictimai maraqdan irəli gəldiyini vurğulamışdır.

Tədbirdə qaliblər elan olunmuş, onlara diplom və hədiyyələr təqdim edilmişdir. Ümumiyyətlə isə, bütün müsabiqə iştirakçılarının iştirakı qeyd olunmuş və onlar mükafatlandırılmışlar.

**Muşfiq MİRZƏ,**
**"Respublika".**